# YAP Səbail rayon təşkilatının rayon şurasının və ərazi ilk partiya təşkilat sədrlərinin onlayn formatda iclası





İyulun 9-da YAP Səbail rayon təşkilatında rayon şurasının və ərazi ilk partiya təşkilat sədrlərinin onlayn formatda növbəti geniş tərkibli iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasa sədrlik edən YAP Səbail rayon təşkilatının sədri professor Şəmsəddin Hacıyev koronavirus (COVID-19) epidemiyası ilə mübarizə çərçivəsində ölkəmizdə həyata keçirilən ardıcıl, sistemli və qabaqlayıcı tədbirlər, dövlətimizin başçısının qəbul etdiyi qərarlar və hökumət tərəfindən atılan addımlar haqqında danışıb. Bildirib ki, bütün bəşəriyyət üçün qlobal sınağa çevrilmiş koronavirus pandemiyası, bu pandemiya ilə əlaqədar respublika ərazisində tətbiq olunan xüsusi karantin rejimi bir daha göstərdi ki, Azərbaycan Prezidenti üçün əhalinin sağlamlığı prioritetdir. Yaranmış iqtisadi təzyiqə baxmayaraq, hökumət tərəfindən sosial dövlət konsepsiyasına uyğun olaraq sosial proqramlar davam etdirilir və özünütəcrid şəraitində vətəndaşlara maksimum sosial-iqtisadi dəstək göstərilir, səhiyyə sisteminin virusla mübarizə üçün hazır vəziyyətə gətirilməsi məqsədilə təxirəsalınmaz tədbirlər vaxtında icra olunur.

Ş.Hacıyev deyib: “Pandemiya ilə mübarizənin 6 aylıq təcrübəsi göstərdi ki, bu ümumbəşəri bəla ilə mübarizə üçün ölkələr ayrı-ayrılıqda deyil, yalnız bütün səylərini birləşdirərək uğur qazana bilərlər. Təəssüf ki, hətta inkişaf etmiş bəzi ölkələrdə virusdan ölüm hallarının sayının artmasına baxmayaraq, iqtisadi tənəzzülün aradan qaldırılması prioritet vəzifə kimi irəli sürülür. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev isə bu məsələdə tamamilə fərqli mövqe nümayiş etdirdi, insani dəyərlərə, həmrəyliyə, əməkdaşlığa həmişə olduğu kimi bu dövrdə də sadiq qaldı və pandemiyaya qarşı ən mütərəqqi mübarizə modelini nümayiş etdirdi. Təsadüfi deyil ki, möhtərəm Prezidentimiz pandemiyanın dünyada sürətlə vüsət aldığı ilk gündən etibarən real addımlar atdı, konstruktiv təkliflərlə dünya ölkələrini bu pandemiyaya qarşı mübarizədə birliyə, həmrəyliyə dəvət etdi. Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının və Qoşulmama Hərəkatının Zirvə görüşləri keçirildi. Həmçinin dövlətimizin başçısı pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının Xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etdi və dünyanın 130-dan çox ölkəsi Azərbaycan Prezidentinin bu təşəbbüsünü dəstəklədi. Bu hadisə Azərbaycan üçün diplomatik tarixi uğurdur”.

İclasda Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli Əhmədovun sədrliyi ilə iyunun 13-də keçirilmiş müşavirədə rayon partiya təşkilatları qarşısında qoyulan vəzifələr, o cümlədən partiya üzvlərinin uçot qeydiyyatı məsələləri haqqında iclas iştirakçılarına ətraflı məlumat təqdim olunub və bütün ərazi ilk partiya təşkilatları sədrlərinə bu vəzifələrdən irəli gələn konkret tapşırıqlar verilib.

Sonra məsələ ilə bağlı çıxışlar dinlənilib və qarşıda duran vəzifələrlə bağlı təkliflər səsləndirilib.

# Aydın Quliyev: Azərbaycan qlobal təşəbbüslərə tam hazır və qadir ölkədir

“Pandemiya ilə qlobal mübarizə üzrə BMT-nin Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsinə dair Prezident İlham Əliyevin 120 ölkəni əhatə edən videokonfransda verdiyi təklifin qəbul edilməsi bu təşkilatın öz tarixinə, COVID-19-la mübarizədə və bəşəri tərəqqiyə xidmət edən qlobal təşəbbüslər tarixinə böyük hadisələrdən biri kimi yazılacaq.” Bu fikri “Bakı xəbər” qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev qəzetimizə açıqlamasında bildirdi.

A.Quliyevin sözlərinə görə, dövlət başçısı İlham Əliyevin mayın 4-də Qoşulmama Hərəkatının regional təmsilçilərinin iştirakı ilə keçirilən videokonfransda verdiyi təklifin belə qısa müddətdə icraya qəbul edilməsi Azərbaycanın beynəlxalq sülh və təhlükəsizlik proseslərində nə qədər yaradıcı və təşəbbüskar səviyyədə iştirakını sübut edən tutarlı faktdır: “Azərbaycan Prezidentinin təklifi əsasında BMT Baş katibinin pandemiya ilə mübarizəyə dair xüsusi sessiyasının keçirilməsi üçün rəsmi hazırlıqlara başlaması hər bir azərbaycanlı üçün qürurverici faktdır. Dövlət başçımızın təklifinin BMT-də icraya qəbul edilməsi ölkəmizin dünya birliyindəki güclü mövqeyi ilə birbaşa bağlıdır. Belə ki, BMT yarandığı 1945-ci ildən indiyə qədərki dövr ərzində çox nadir hallarda belə xüsusi sessiyalar keçirmək qərarı verib. BMT-nin xüsusi konfrans və ya sessiyalarının keçirilməsi təşəbbüslərinin heç də hamısı məqbul qarşılanmayıb. Prezident İlham Əliyevin təklifi ilə BMT-nin xüsusi sessiyasının keçirilməsi ümumən 2-ci Dünya müharibəsindən sonra bu qurumun praktikasında nadir hadisələrdən biri olacaq.”



Baş redaktor bildirdi ki, Prezident İlham Əliyev hələ may ayının 4-də bu təklifi irəli sürərkən pandemiya ilə mübarizənin uğurlarının təkcə milli hakimiyyətlər və ölkələr çərçivəsində aparılmasından asılı olmadığı məntiqindən çıxış etmişdi: “Dəqiq desək, ölkə başçısı İlham Əliyev 4 may təklifi ilə bütün dünya ölkələrinə mesaj verdi ki, bəşəriyyəti bu təhlükədən qorumağın ən etibarlı yolu milli sərhədlər miqyasına qapanmaq yox, səyləri qlobal miqyasda birləşdirməkdir. Ötən iki ayda dünyada pandemiyanın yeni tüğyan əlamətləri sübut etdi ki, Azərbaycan antipandemiya addımlarını qabaqlayıcı şəkildə atdığı kimi, birgə qlobal tədbirlərin də əvvəlcədən görülməsi zərurətini çoxlarından əvvəl görür. Azərbaycanın koronavirusla mübarizədə dünyanı bir araya gətirmək təşəbbüsləri konkret nəticə verdi. Bəşəriyyətin qorxulu virusla mübarizə aktivinə Azərbaycanın bir ölkə olaraq təqdim etdiyi sanballı töhfələrin sayı artır. Ermənistan və bu kimi bir sıra ölkələr Ümumdünya Səhiyyə Təşkilatından (ÜST) və başqa dövlətlərdən çarəsiz şəkildə yardım istədikləri halda, Azərbaycan çox az sayda donor ölkələrdən biri olaraq öz üzərinə böyük missiya götürdü, iki mərhələdən ibarət olmaqla ÜST-ün xətti ilə ehtiyacı olan ölkələrə 10 milyon dollar yardım etdi. Dünyada koronavirusla mübarizəyə dair BMT-nin xüsusi sessiyasının keçirilməsi təşəbbüsü məhz bizim ölkəmizə - Azərbaycana məxsusdur. Azərbaycan beynəlxalq sülhə, rifaha və inkişafa real töhfələr vermək gücündə və iradəsində olduğunu növbəti dəfə sübut etdi.”

Siyasi ekspert qeyd etdi ki, koronavirusla mübarizə çərçivəsində xüsusi sessiya BMT-nin özünün dünyadakı nüfuzunun və hörmətinin xeyli dərəcədə bərpa olunmasına mütləq təsir göstərəcək: “Azərbaycan Prezidentinin təklifinin hələlik bu günədək 130 ölkə tərəfindən dəstəkənməsi davamlı bir prosesin başlandığını göstərir. Heç şübhə yoxdur ki, təktük ambisioz və irticaçı ölkələri çıxmaq şərti ilə ölkə başçısı İlham Əliyevin təklifini dəstəkləyən ölkələrin sayı daha da artacaq. Mövcud beynəlxalq prosedura görə bu təklifin gerçəkləşməsi üçün cəmi 97 ölkənin dəstək verməsi kifayət etdiyi halda, 130 dövlətin müdafiəsi Azərbaycanın qlobal təşəbbüslərə tam hazır və qadir ölkə olduğunu bir daha sübut etdi. BMT rəsmiləri bu təşəbbüsə qiymət verərkən ölkəmizin pandemiya ilə mübarizədə əldə etdiyi yaxşı nəticələri, Azərbaycanın sistemli mübarizə modelinə malik olduğunu və etibarlı siyasət apardığını, sözsüz ki, nəzərə aldı.”

**Cavid Əkbərov,**
***“İki sahil”***

## 1295 HƏRƏKƏT İŞTİRAKÇISI CƏRİMƏLƏNİB



Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi iyulun 8-də xüsusi karantin rejiminin pozulmasına görə inzibati məsuliyyətə cəlb edilmiş hərəkət iştirakçılarının sayı və görülən tədbirlər barədə məlumatı açıqlayıb.

İdarədən AZƏRTAC-a bildiriblər ki, koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Bakı, Cəlilabad, Gəncə, Lənkəran, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərlərində və Abşeron, Bərdə, Xaçmaz, Goranboy, Göygöl, Samux, Siyəzən və Şəki rayonları ərazisində tətbiq edilmiş sərtləşdirilmiş xüsusi karantin rejiminin pozulmasına görə iyulun 8-də saat 00:00-dan iyulun 9-u saat 00:00-dək olan müddətdə nəqliyyat vasitələri ilə hərəkətdə olan 1081 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211.1-ci, sərnişindaşımada istifadə olunan taksi və avtobuslarda tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə edilmədiyinə görə 213 nəfər həmin Məcəllənin 211.2-ci, eyni əməllərin il ərzində təkrar törədilməsinə görə isə Məcəllənin 211.3-cü maddəsi ilə 1 nəfər olmaqla ümumilikdə 1295 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

Qeyd olunan müddət ərzində Bakı-Quba yolunun 52-ci kilometrliyində yerləşən karantin keçid postundan 20-i rayon, 35-i paytaxt istiqamətinə olmaqla 55, Bakı-Şamaxı-Yevlax yolunun 31-ci kilometrliyində yerləşən postdan 25-i rayon, 65-i paytaxt istiqamətinə olmaqla 90, Bakı-Qazax-Gürcüstan yolunun 65-ci kilometrliyində yerləşən keçid postundan 115-i rayon, 65-i paytaxt istiqamətinə olmaqla 180 avtomobil geri qaytarılıb. Ümumilikdə 325 nəqliyyat vasitəsi ilə müvafiq icazə olmadan postlardan keçmək cəhdinin qarşısı alınıb.

## POLİS İSMAYILLIDA XƏBƏRDARLIQ ETDİ



İsmayıllı Rayon Polis Şöbəsinin əməkdaşları karantin rejimi qaydalarının təmin olunması məqsədilə rayon ərazisində tədbirləri davam etdirir.

DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan Trend-ə verilən məlumata görə, polis əməkdaşları rayon ərazisində yerləşən istirahət mərkəzlərinə baş çəkib, həmin obyektlərin sahibləri ilə maarifləndirici söhbətlər aparıblar. Operativ Qərargahın tələb və tövsiyələrinə istirahət mərkəzlərində də ciddi riayət edilməsinin vacibliyi həmin sahibkarların diqqətinə çatdırılıb. İnsanların bir yerə toplaşmasının qarşısının alınması, qapalı məkanlarda tibbi maskalardan istifadə edilməsi, eləcə də digər sosial izolyasiya qaydalarının təmin olunmasının zəruriliyi onlara bildirilib.